Azərbaycan Respublikası
Mərkəzi Bankının İdarə Heyətinin
“07” mart 2024-cü il tarixli
qərarı ilə təsdiq edilmişdir
Protokol № 11

# AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKININ

# KAPİTAL BAZARI FƏALİYYƏTİNƏ NƏZARƏT DEPARTAMENTİ HAQQINDA

# Ə S A S N A M Ə

**BAKI - 2024**

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Azərbaycan Respublikası Mərkəzi Bankının Kapital bazarı fəaliyyətinə nəzarət departamenti (bundan sonra - Departament) Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra - Mərkəzi Bank) mərkəzi aparatının struktur bölməsidir.

1.2. Departament öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikasının qüvvədə olan digər normativ hüquqi aktlarını, Mərkəzi Bankın normativ xarakterli aktlarını, İdarə Heyətinin və daxili komitələrin qərarlarını, Mərkəzi Bank üzrə əmrləri, sərəncamları və bu Əsasnaməni rəhbər tutur.

1.3. Departament bu Əsasnamə ilə müəyyən olunmuş funksiyaların yerinə yetirilməsi prosesində Mərkəzi Bankın digər struktur bölmələri və qurumları ilə fəaliyyətini əlaqələndirir.

## 2. DEPARTAMENTİN FƏALİYYƏTİNİN ƏSAS MƏQSƏDİ

Departamentin fəaliyyətinin əsas məqsədi qiymətli kağızlar bazarı və törəmə maliyyə alətləri sahəsində nəzarətin effektiv həyata keçirilməsi ilə kapital bazarında sabitliyi və dayanıqlığını, eləcə də kapital bazarı sahəsində şəffaflığı və məlumatların açıqlanmasını təmin etməkdən ibarətdir.

## 3. DEPARTAMENTİN ƏSAS FUNKSİYALARI

Departamentin əsas funksiyaları aşağıdakılardır:

3.1. qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslərin, mərkəzi depozitarın, investisiya fondları və investisiya fondlarının idarəçilərinin fəaliyyətinə risk əsaslı nəzarətin həyata keçirilməsi;

3.2. qiymətli kağızları kütləvi təklif üsulu ilə yerləşdirilən və tənzimlənən bazarda ticarətə buraxılmış emitentlər tərəfindən hesabatların təqdim edilməsinə və məlumatların açıqlanmasına nəzarətin həyata keçirilməsi;

3.3. qiymətli kağızların dövlət qeydiyyatına alınması və dövlət reyestrinin aparılması;

3.4. qanunvericiliyə uyğun olaraq kapital bazarı sahəsində lisenziya və icazə sisteminin təmin edilməsi;

3.5. qiymətli kağızlar bazarında bazar davranışlarına nəzarət edilməsi;

3.6. Departamentin büdcə layihəsinin hazırlanması və icrasının təmin edilməsi;

3.7. Departamentə aidiyyəti üzrə daxil olan müraciətlərə baxılması, məktub və sorğulara cavabların hazırlanması;

3.8. rəhbərliyin tapşırığı ilə Departamentin fəaliyyət istiqamətləri üzrə digər işlərin yerinə yetirilməsi.

## 4. DEPARTAMENTİN TƏŞKİLATİ STRUKTURU VƏ İDARƏ OLUNMASI

4.1. Departamentin təşkilati strukturu aşağıdakı şöbələrdən ibarətdir:

4.1.1. Kapital bazarına və infrastruktura nəzarət şöbəsi;

4.1.2. Korporativ maliyyə şöbəsi;

4.1.3. Lisenziyalaşdırma və qeydiyyat şöbəsi.

4.2. Departamentin fəaliyyətinə direktor rəhbərlik edir. Departament direktoru işdə olmadıqda onun səlahiyyətlərini direktor müavini (olduqda) həyata keçirir, bu şərtlə ki, rəhbərlik tərəfindən direktor vəzifəsinin icrası şöbə rəislərindən birinə və ya digər şəxsə həvalə edilməsin.

4.3. Departamentin nomenklatur vəzifəli şəxsləri Mərkəzi Bankın İdarə Heyəti tərəfindən və ya İdarə Heyətinin müəyyən etdiyi qaydada vəzifəyə təyin və vəzifədən azad olunurlar.

## 5. DEPARTAMENTİN İŞİNİN TƏŞKİLİ

**5.1. Kapital bazarına və infrastruktura nəzarət şöbəsi:**

5.1.1. qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslərin, investisiya fondları və investisiya fondlarının idarəçilərinin fəaliyyətinə mikroprudensial nəzarəti həyata keçirir;

5.1.2. kapital bazarına və infrastruktura təhdid yaradan risklərin müəyyənləşdirilməsi, onların qiymətləndirilməsi, monitorinqinin aparılması və minimallaşdırılması ilə bağlı təkliflər formalaşdırır;

5.1.3. qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslərin, mərkəzi depozitarın, investisiya fondlarının və investisiya fondlarının idarəçilərinin fəaliyyətinin yoxlanılmasını həyata keçirir;

5.1.4. qiymətli kağızlar bazarında sui-istifadə halları, o cümlədən manipulyasiyalar və insayd məlumatdan istifadə etməklə həyata keçirilən əməliyyatlar aşkar edildikdə, qanunvericilikdə müəyyən edilmiş tədbirlər görür;

5.1.5. investorların hüquqlarının müdafiəsi və qiymətli kağızlar bazarının

təhlükəsizliyinin təmin edilməsi üçün qiymətli kağızlarla və törəmə maliyyə alətləri ilə ticarəti dayandırır, aktivlərin dondurulması və (və ya) üzərinə həbs qoyulması üzrə tələb irəli sürür;

5.1.6. qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslərdən, investisiya fondları və onların idarəçilərindən hesabatlar, habelə investisiya şirkətlərindən prudensial hesabatlar alır və həmin hesabatları təhlil edir;

5.1.7. lisenziya almadan investisiya şirkəti, fond birjası, klirinq təşkilatı, investisiya fondunun depozitarı, investisiya fondu və investisiya fondlarının idarə edilməsi fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslər aşkar edildikdə, onların fəaliyyətinin dayandırılması və aidiyyəti dövlət orqanlarına müraciət edilməsi ilə bağlı səlahiyyətləri çərçivəsində tədbirlər görür;

5.1.8. öz səlahiyyətləri çərçivəsində qiymətli kağızlar bazarına dair qanunvericiliyə əməl edilməsinə nəzarət edir və onun tələblərini pozan şəxslərə icrası məcburi göstərişlərin, habelə digər inzibati icraat tədbirlərinin tətbiqi üzrə təkliflər verir;

5.1.9. qiymətli kağızlar bazarında lisenziyalaşdırılan fəaliyyətə, investisiya fondu və investisiya fondlarının idarə edilməsi üzrə fəaliyyətlərə lisenziya və icazələrin verilməsinə məsul olan struktur bölmənin sorğularına rəy verir;

5.1.10. qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslərin, investisiya fondları və investisiya fondlarının idarəçilərinin lisenziyalarının qanunvericiliyə uyğun olaraq ləğvi ilə əlaqədar təkliflər verir;

5.1.11. öz səlahiyyətləri çərçivəsində cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi və hədəfli maliyyə sanksiyaları haqqında qanunvericiliyin tələblərinə əməl edilməməsi ilə bağlı hallar aşkar etdikdə, bu barədə aidiyyəti struktur bölməyə məlumat verir;

5.1.12. kapital bazarının inkişafının dəstəklənməsi və təbliğində iştirak edir;

5.1.13. səlahiyyətinə aid məsələlər üzrə arayışlar və materiallar hazırlayır;

5.1.14. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.2. Korporativ maliyyə şöbəsi:**

5.2.1. qiymətli kağızları kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış emitentlər tərəfindən qanunvericiliklə nəzərdə tutulmuş məlumatların və hesabatların açıqlanmasına nəzarəti və monitorinqi həyata keçirir;

5.2.2. qiymətli kağızları kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış emitentlərin Məlumatların Elektron Açıqlanması Sistemində qeydiyyatını və təqdim edilən məlumatların yoxlanaraq açıqlanmasını təmin edir;

5.2.3. öz səlahiyyətləri çərçivəsində qiymətli kağızlar bazarına dair qanunvericiliyə əməl edilməsinə nəzarət edir və onun tələblərini pozan şəxslərə icrası məcburi göstərişlərin, habelə digər inzibati icraat tədbirlərinin tətbiqi üzrə təkliflər verir;

5.2.4. Məlumatların Elektron Açıqlanması Sisteminin əməliyyat inzibatçılığını həyata keçirir və onların təkmilləşdirilməsi üzrə təkliflər verir;

5.2.5. məlumatların açıqlanması prosesinin optimallaşdırılması üzrə öz səlahiyyətləri çərçivəsində təkliflər verir;

5.2.6. kapital bazarının inkişafının dəstəklənməsi və təbliğində iştirak edir;

5.2.7. səlahiyyətinə aid məsələlər üzrə arayışlar və materiallar hazırlayır;

5.2.8. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.3. Lisenziyalaşdırma və qeydiyyat şöbəsi:**

5.3.1. öz səlahiyyətləri daxilində nəzarət subyektlərinin fəaliyyətinin həyata keçirilməsi ilə bağlı lisenziya və icazələrin alınması üçün təqdim olunan sənədlərin uçotunu aparır, ekspertizasını həyata keçirir və aidiyyəti struktur bölmələrdən rəy alır, lisenziya və icazələrin verilməsi ilə əlaqədar müvafiq tədbirlər görür;

5.3.2. zərurət olduqda lisenziya və icazə almaq istəyən lisenziyalaşdırılan şəxslərin nizamnamə kapitalının mənbəyinin araşdırılması ilə əlaqədar müvafiq orqanlara sorğu göndərir və əldə edilmiş məlumatları müqayisəli təhlil edir;

5.3.3. əlaqədar struktur bölmələrin təqdimatları əsasında Mərkəzi Bank tərəfindən verilmiş lisenziya və icazələrin qüvvəsinin dayandırılması, məhdudlaşdırılması və ləğv edilməsi ilə bağlı zəruri tədbirlər görür;

5.3.4. aidiyyəti üzrə nəzarət subyektlərinə verilmiş lisenziyaların və icazələrin, o cümlədən onların filial və nümayəndəliklərinin ictimaiyyət üçün açıq olan reyestrini aparır;

5.3.5. veksellərin uçot təşkilatlarının qeydiyyatını həyata keçirir;

5.3.6. paylı investisiya fondunun idarə edilməsi qaydalarını dövlət qeydiyyatına alır;

5.3.7. nəzarət subyektlərində rəhbər vəzifə tutan şəxslərin təyinatı ilə bağlı müraciətlərə baxır, qanunvericiliyə uyğun olaraq nəzarət subyektlərinin rəhbər şəxslərinin və əməkdaşlarının ixtisas uyğunluğu və vətəndaş qüsursuzluğuna dair sənədləri yoxlayır, müsahibə və attestasiyaların keçirilməsini təşkil edir;

5.3.8. investisiya şirkətində, fond birjasında, klirinq təşkilatında, investisiya

fondunun depozitarında, səhmdar investisiya fondunda və idarəçidə mühüm iştirak payının əldə edilməsi ilə bağlı müraciətlərə baxır və aidiyyəti struktur bölmələrdən rəy alır;

5.3.9. qiymətli kağızların (investisiya fond payı və daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı istisna olmaqla) dövlət qeydiyyatına alınmasını təşkil edir;

5.3.10. qiymətli kağızların dövlət qeydiyyatı ilə bağlı daxil olmuş sənədlərin, o cümlədən emissiya prospektlərinin və informasiya memorandumlarının qanunvericiliyin tələblərinə uyğun hazırlanmasına nəzarət edir;

5.3.11. qiymətli kağızların və emissiya prospektlərinin (informasiya memorandumlarının) dövlət reyestrini aparır;

5.3.12. Qiymətli Kağızların Emissiyası Sistemi və Qiymətli Kağızların Dövlət Reyestri Sisteminin əməliyyat inzibatçılığını həyata keçirir və onların təkmilləşdirilməsi üzrə təkliflər verir;

5.3.13. səhmlərin birləşdirilməsi, xırdalanması və onların nominal dəyərinin artırılması zamanı səhmlərin emissiyasını dövlət qeydiyyatına alır;

5.3.14. hüquqi şəxslərin yenidən təşkili zamanı investisiya qiymətli kağızlarının emissiyasını və konvertasiyasını dövlət qeydiyyatına alır;

5.3.15. dövlət müəssisələrinin çevrilməsi nəticəsində yaradılan səhmdar cəmiyyətlərinin səhmlərinin buraxılışını dövlət qeydiyyatına alır;

5.3.16. investisiya qiymətli kağızlarının Azərbaycan Respublikası ərazisindən kənarda buraxılışını və yerləşdirilməsini dövlət qeydiyyatına alır;

5.3.17. qiymətli kağızların dövriyyədən çıxarılması ilə bağlı müraciətlərə baxır və dövriyyədən çıxarılmış qiymətli kağızlar üzrə qiymətli kağızların dövlət reyestrində müvafiq qeydlər aparır;

5.3.18. qiymətli kağızlar dövlət qeydiyyatına alındıqda və emissiya prospektləri (informasiya memorandumları) təsdiq edildikdə, müvafiq sənədləri hazırlayır və rəhbərliyin təsdiqinə təqdim edir;

5.3.19. qiymətli kağızların emissiyasının yekunları haqqında hesabatlarla bağlı müraciətlərə baxır və hesabatların təsdiqi ilə bağlı işləri icra edir;

5.3.20. investisiya qiymətli kağızlarının emissiyasının dayandırılması və baş tutmamış hesab edilməsi ilə bağlı tədbirlər görür;

5.3.21. qiymətli kağızların buraxılışı, məlumatların açıqlanması və emissiyası prosesinin optimallaşdırılması üzrə öz səlahiyyətləri çərçivəsində təkliflər verir;

5.3.22. səlahiyyətinə aid məsələlər üzrə arayışlar və materiallar hazırlayır;

5.3.23. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

## 6. YEKUN MÜDDƏALAR

6.1. Bu Əsasnamə təsdiq edildiyi gündən qüvvəyə minir.

6.2. Bu Əsasnamə qüvvəyə mindiyi gündən Mərkəzi Bankın İdarə Heyətinin 07 sentyabr 2022-cil il tarixli qərarı (protokol №38) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Mərkəzi Bankının Kapital bazarı fəaliyyətinə dair siyasət və nəzarət departamenti departamenti haqqında Əsasnamə” ləğv edilir.

**Mərkəzi Bankın sədri** **Taleh Kazımov**